PLANET CANLI VARLIQDIRMI ?

Cümə axşamı 30 yanvar, saat 19.00, UFAZ (Nizami küçəsi, 183)

Məruzəçilər :
Jan-Fransua Kreto, Fransa Milli Kosmik Araşdırmalar Mərkəzinin tədqiqatcısı ;
Ramiz Məmmədov, Milli Elmlər Akademiyasında coğrafiya institutunun direktoru ;
Zaur Rəşidov, Milli Elmlər Akademiyasında fəlsəfə institutunun tədqiqatcısı.

Jan-Fransua Kreto: « Canlı planetdə baş verən iqlim dəyişikliyini anlamaq üçün müasir kosmik metodlar »

Son illərdə açıq və danılmaz bir iqlim dəyişikliyi, canlılar kimi müxtəlif maneələrə reaksiya verən Yer üçün fəsadlarla ortaya çıxdı: hava temperaturunun qlobal istiləşməsi və yağış rejiminin dəyişməsi. Planet müxtəlif səviyyələrdə reaksiya göstərir: su ehtiyatları və dəniz səviyyəsinin yüksəlməsi, kontinental buzlaqlar və buz kütlələrinin əriməsi, risklərin tezliyinin artması və biomüxtəlifliyin tükənməsi. Keçmişdə belə dəyişikliklər olub, amma heç vaxt belə sürətli miqyasda baş verməyib və alimlər Yerin bu yaxınlarda Antroposen adlı yeni bir dövrə qədəm qoyduğunu açıqlayıblar. Son illərdə iqlim dəyişikliyini daha yaxşı başa düşmək üçün yerüstü müşahidə məlumatları ilə əlaqəli peyk texnikasına əsaslanan yeni alətlərin, yeni texnikaların, yeni modellərin hazırlanması üçün çox səylər göstərilmişdir. Bu tədqiqatların son irəliləyişləri qurunun su ehtiyatlarına, göllərə, çaylara və rütubətli zonalara xüsusi diqqət yetirilərək təqdim ediləcəkdir.

Bioqrafiya : *Jan Fransua Kreto, Fransa Kosmik Agentliyi olan Fransa Milli Kosmik Tədqiqatlar Mərkəzində (CNES) tədqiqatçıdır. Tuluzanın LEGOS (Kosmik Geofizika və Okeanoqrafiya Tədqiqatları Laboratoriyası) okeanoqrafiya, buzlaqların öyrənilməsi, geodeziya və hidrologiya üzrə ixtisaslaşmış laboratoriyanın direktor müavinidir. JF. Kreto, 2022-ci ilin əvvəlində istifadəyə verilməsi planlaşdırılan və yüksək dəqiqliklə okeanların və kontinental su ehtiyatlarının dövriyyəsini ölçmək məqsədi daşıyan yeni CNES və NASA (SWOT: Surface Water and Ocean Topography) peyk missiyasının əsas təşəbbüskarıdır. O, məsafədən zondlama üsullarından istifadə edərək göllərdəki əsas iqlim dəyişikliyini ölçməyi hədəfləyən, iqlim dəyişikliyi təşəbbüsü çərçivəsində ESA (Avropa Kosmik Agentliyi) tərəfindən maliyyələşdirilən layihə üçün istinaq tədqiqatçıdır. O, eyni zamanda altı ölkədən yeddi komandanı bir araya gətirən Xəzər bölgəsindəki ekoloji dəyişikliklərin öyrənilməsinə həsr olunmuş yeni bir layihənin istinaq alimidir. JF Kretonun hidrologiya və geodeziya sahəsində 70-ə yaxın məqaləsi dərc olunmuşdur.*

Ramiz Məmmədov: « Xəzər dənizi - planetimizin unikal və relikt coğrafi obyekti »

Xəzər dənizinin unikallığı onun iki qitənin kəsişməsində yerləşən, 1200 km məsafədə uzanan, geomorfoloji strukturunun rəngarəngliyi ilə və həmçinin mürəkkəb hidroloji şəraiti ilə müəyyən olunur. Dənizin reliktliyi onun zəngin biomüxtəflifliyi ilə (dünyanın əsas nərə balığı ehtiyatı, suiti və digər balıq növləri) müəyyən olunur. Xəzər dəniiznin su toplayıcı hövzəsi 4 milyon km² olub, ətrafında 100 milyon əhali məskunlaşıb. Bu ərazidən dənizə 130-a yaxın çay tökülür. Həmçinin, bütün iqlim dəyişmələri və digər fövqəladə hallar öz əksini bu çaylar vasitəsilə dənizin ekoloji şəraitinin və səviyyəsinin dəyişməsində tapır. Bütün bunları nəzərə alaraq, Xəzər dənizini yer kürəsinin böyük bir ərazisinin ekoloji və iqlim göstəricisi hesab etmək olar. Xəzərin problemlərinin müəyyən edilməsi, həmçinin qlobal miqyaslı problemlərin təyin edilməsi deməkdir.

Bioqrafiya : *Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini bitirib. Texniki elmlər doktoru, professor, akademik, Elm üzrə Dövlət Mükafatı laureatıdır. Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunun direktorudur. 350 elmi və 150 jurnalist məqaləsinin, 12 monoqrafiyanın və Xəzər dənizində bir Atlasın müəllifidir. Xəzər dənizi və Azərbaycan coğrafiyası sahəsində 10-dan çox beynəlxalq layihənin rəhbəri olub.*

Zaur Rəşidov: « Təsəvvüfdə kainat nizamının ezoterik təsviri »

Ümumilikdə islamın ezoterik istiqaməti olan sufizm və demək olar ki, bu cərəyanın bütün çoxsaylı təriqətlərində, kainatın hər an təkamülü, hər ilahi nəfəsdə yenilənməsi və aləmin əbədi nizamı məsələsi, özünəməxsus şərh edilən fəlsəfi problem qismində son dərəcə önəmli yerlərdən birini tutur. Təbiət, onun qanunauyğunluqları və eləcədə kainatda gözün şəhadət etdiyi kəsrət, ezoterik bir dildə Tanrı ilə vəhdətdə izah edilir. Bu mənada təsəvvüfün əsas təlimlərindən olan vəhdəti-vücudda aləm Haqqın təcəliqahı kimi xarakterzə olunur. Aləmdəki hər bir canlı və cansız mövcud sonsuz məzhərlər şəklində vahid ilahi vəhdətə müncər edilir. İlahi vəhdət zəncirvari şəkildə Tanrıdan mövcudlaradək vahid bir bağlamda təmin olunur. Bu təlimdə təbiət qanunları və bütövlükdə dünya nizamı, ezoterik çalarlarla poetik bir dildə təsvir olunur. İslam fəlsəfəsinin əsası olan məşşailik və islam ezoterikası sufilik arasında əsas bərzəx-bağlardan biri olan işraqilikdə isə, Tanrı nurların nuru elan edilməklə qaranlıq aləmi nura qərq edən qüvvə kimi təqdim edilir. Təbiətdə hər bir şey bu nurdan öz nəsibini alaraq ümumi ilahi nizamı təşkil edən vacib bir ünsürə çevrilir. Canlı və cansız hər bir hissəcik parıltı və ya ziya olaraq nurlanan kainat aynasında əks olunur. İslamın digər ezoterik təlimlərindən olan hürufilikdə isə, Haqq ilə xilqət arasında əlaqə və bağlılığı təmin edən insan bu makro və mikro kosmoslar arasında mezokosmos olaraq öz xüsusi yerini alır. O, aləmin ümumi nizamını öz üzərinə çəkir. Səsin, sözün, hərfin və sayın ən kamil məzhəri-kəliməsi olan insansız bu nizamın kəmala yetməsi mümkün olmur. Bu sistemdə zərrədən günəşədək hər bir element insan adlı kiçik bir təbiətin məkanına müncər edilir.

Bioqrafiya : *Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunda çalışır. O, "Azərbaycan fəlsəfə tarixi" şöbəsinin doktorantı və elmi işçisidir. Əsas tədqiqat sahəsi orta əsrlər Qərb və Şərq, xüsusən də islam fəlsəfə tarixləri arasındakı müqayisəli təhlillərdir. Dissertasiya işi "B.Spinozanın panteizmi və müsəlman Şərqinin vəhdəti-vücud təlimi (müqayisəli təhlil)" adlanır. Onun qeyd olunan sahədə, həmçinin fəlsəfə tarixinin komparatistik təhlilinə dair 30-dan artıq elmi məqaləsi dərc olunmuşdur.*